# “Multikulturalizm ili” çərçivəsində “Qardaşlaşmış məktəblər” layihəsi

**Ceyran KULİYEVA,**
*Bakı şəhəri 189-190 nömrəli tam orta məktəbin direktoru*

Qədim tarixə və zəngin mədəniyyətə malik olan xalqımız dünyada həm də multikulturalizm, humanizm və qarşılıqlı hörmət ənənələri ilə tanınır. Azərbaycanın tolerantlıq, mədəniyyətlərarası və sivilizasiyalararası münasibətlər baxımından zəngin tarixi vardır. Bu gün bütün dünyada demokratiyanın, dini tolerantlığın və dözümlülüyün bəşəriyyət üçün, insanlıq naminə vacib amillərdən birinə çevrildiyi bir zamanda xalqımızın multikulturalizm ənənələri dövlətimizin yürütdüyü uğurlu siyasətin əsas tərkib hissəsini təşkil etməklə Azərbaycan cəmiyyəti üçün həyati normaya çevrilmişdir. Möhtərəm cənab Prezident İlham Əliyevin ölkəmizin tolerantlıq ənənələrinə, mədəniyyətlər və sivilizasiyalararası dəyərlərə mühüm töhfələr verdiyini nəzərə alaraq 2016-cı ili Azərbaycanda “Multikulturalizm ili” elan etməsi buna bariz nümunədir.

Müxtəlif dini təriqətlərə mənsub olan Azərbaycan vətəndaşları yüzilliklər ərzində sülh və əmin-amanlıq şəraitində yaşayıblar, bu ənənə bu gün də davam etməkdədir. Rəhbərlik etdiyim təhsil ocağı da bu mənada nümunə ola bilər. Böyük məmnunluq hissi ilə qeyd etmək istəyirəm ki, çoxmillətli şagird və müəllim kollektivində heç vaxt dinlərarası zəmində münaqişə yaranmayıb və təhsil ocağındakı münasibətlər daim qarşılıqlı ehtirama, anlaşmaya əsaslanıb. Azərbaycan və rus bölməsi olmaqla uzun illər müxtəlif millətlərin və təbii ki, müxtəlif dinlərin nümayəndələrinin çalışdığı pedaqoji kollektivdə, eləcə də məktəblilər arasında heç bir vaxt milli, dini və irqi zəmində fərq qoyulmamış, əksinə, hər zaman anlaşma, qarşılıqlı hörmət, etibar və etimad hökm sürmüş, hər kəs özünü kollektivin tamhüquqlu üzvü hesab etmişdir və əminəm ki, gələcəkdə də bu şəkildə davam edəcəkdir. Məşhur siyasi xadim Mahatma Qandinin qeyd etdiyi kimi, “Günümüzün ehtiyacı yalnız bir din deyil, müxtəlif dinlərin tərəfdarlarına qarşı qarşılıqlı hörmət və dözümlülükdür”. Həqiqətən də dinlər arasında dialoqun yaradılması, qarşılıqlı hörmət göstərilməsi müasir cəmiyyətdə demokratik stabilliyin yaradılması üçün çox vacibdir.

Azərbaycanda tarixən dini tolerantlıq mədəniyyətinin yüksək olduğunu dəfələrlə həm dinşünas alimlər, həm də digər dinlərin nümayəndələri etiraf etmişlər. Azərbaycan hər zaman çoxmillətli bir ölkə olmuşdur. Azərbaycan ərazisində yaşayan çoxsaylı etnik və dini qruplar arasında möhkəm əlaqələrin formalaşmasında onların tale ümumiliyi amili də böyük rol oynamış, dünyagörüşlərindəki fərqlərə baxmayaraq, yaxınlaşmağa vadar etmişdir. Əsrlər boyunca milyonlarla insanın məhvinə səbəb olan müxtəlif yönlü ayrı-seçkilik motivləri mövcud olmuşdur. İnsanlar təkcə sosial baxımdan deyil, rənginə, mədəniyyətinə, fərqli həyat tərzinə, davranışlarına görə də təqib olunmuşlar. Təəssüf ki, bu münaqişələr hələ də davam etməkdədir. Bu mənada, əlaqələrin daha da sıxlaşdığı və intensivləşdiyi, əməkdaşlığın bu qədər əhəmiyyətli olduğu bir dövrdə multikulturalizm ideyalarının gündəmə gətirilməsi təsadüfi xarakter daşımır. Bu gün bəşəriyyətin inkişafı üçün yeni imkanlar yaradan qloballaşma və inteqrasiya prosesləri, informasiya-kommunikasiya texnologiyaları insanlar arasında münasibətlərin yenidən qurulmasına, elm və biliyin, texnologiyaların sərbəst mübadiləsinə, şəxsiyyətin özünütərbiyəsinə şərait yaradır, müxtəlif mədəniyyətlər arasında dialoqu genişləndirir. Multikulturalizm həm hər hansı bir dövlətin sərhədləri daxilində, həm də ümumilikdə dünyada fərqli mədəniyyətlərin bir arada, sərbəst və bərabərhüquqlu şəkildə yaşamasını təmin edən hərəkatdır. Cəmiyyətdə fərqli baxışlara, mədəniyyətlərə, dinlərə hörmətin bərqərar olması üçün gənc nəslin bu ruhda yetişdirilməsi mühüm məsələlərdən biridir. Gənclər hələ uşaq yaşlarından öz həmyaşıdlarına, onların milli mənsubiyyətinə, dini baxışlarına, dünyagörüşlərinə sayğı ilə yanaşma vərdişlərinə yiyələnməlidirlər. Belə ki, insanlar təkcə multikulturalizm ideyalarının əhəmiyyətli tərəflərini bilməli deyil, həm də onları öz əməlləri ilə nümayiş etdirməyi bacarmalıdırlar. Bu mənada müasir təhsilin üzərinə az iş düşmür.

Məktəbimiz bu günlərdə Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun “İlboyu bilik” proqramı üzrə həyata keçirdiyi önəmli xarakter daşıyan “Qardaşlaşmış məktəblər” layihəsinə qoşulmaqla “Multikulturalizm ili”nə töhfə vermiş oldu.

Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsis edilmiş Bilik Fondunun dəstəyi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Bakı Slavyan Universitetinin birgə təşkilatçılığı ilə reallaşan “Qardaşlaşmış məktəblər” layihəsi Azərbaycan məktəbliləri ilə yanaşı Türkiyə və Rusiya məktəblilərinin iştirakı ilə gerçəkləşdi. Məqsəd məktəblilər arasında mədəniyyətlərarası münasibətlərin yaradılması, möhkəmləndirilməsi və mədəni ənənələrin mübadiləsindən ibarət idi. Fevralın 13-də məktəbimizin bir qrup müəllim və şagirdi Moskva şəhəri 1273 nömrəli ingilis dili təmayüllü məktəbin, Ankara şəhəri “Heydər Əliyev ilk okulu”nun və Bakı Slavyan Universitetinin Məktəb-Lisey Kompleksinin şagirdləri ilə Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət etmişdir. Daha sonra nümayəndə heyəti məktəbimizin qonağı olmuş, fənn kabinetlərini gəzmiş, “Heydər Əliyev muzeyi”ndə təşkil edilmiş “dəyirmi masa” ətrafında bir araya gəlmişlər. “Dəyirmi masa” ətrafında fikir mübadiləsi zamanı məktəblilər multikulturalizm ideyalarının əhəmiyyətindən, bu istiqamətdə respublikamızda aparılan işlərdən, Prezident İlham Əliyevin multikulturalizm siyasətindən söz açmışlar. Tədbir iştirakçıları - rus, türk və azərbaycanlı məktəblilər ilkin təəssüratlarını bölüşmüş, yeni dostlar qazanmış, öz məramına görə cəmiyyətdə böyük marağa səbəb olan qardaşlaşma təşəbbüsünün müasir dünya insanının ən böyük arzusu olan sülh və əmin-amanlığa xüsusi töhfə verəcəyinə əminliklərini bildirmişlər. Layihə iştirakçıları məktəb kollektivi tərəfindən hazırlanmış geniş və əhatəli tədbirlərlə yaxından tanış olmuş, sərbəst şəkildə layihə haqqında öz fikirlərini bildirmiş, yeni dostlar qazandıqlarını etiraf etmişlər. Şagirdlər arasında yaranmış isti münasibət tədbirin yüksək səviyyədə keçməsinə səbəb olmuşdur. Xoş təəssüratlarla ayrılan layihə iştirakçıları sonda xatirə olaraq hədiyyələrlə paylaşmış, şəkilllər çəkdirmişlər. Tədbirdə iştirak edən hər kəs məmnunluğunu ifadə etmişdir.

Layihənin fəal iştirakçılarından olan bir qrup məktəbli Bakı Slavyan Universitetində “Multikulturalizm Azərbaycanda həyat tərzi kimi - öyrən, araşdır, paylaş - 2016” Beynəlxalq Multikulturalizm Qış məktəbinin iştirakçıları ilə görüşmüş, birlikdə universitetin muzeyində, “Azərbaycanşünaslıq” Tədris Mədəniyyət Mərkəzində, Rusiya Tədris-Mədəniyyət Mərkəzində, Türkiyə Araşdırmaları Mərkəzində olmuş, BSU-nun akt zalında “Qardaşlaşma Sazişi”nin imzalanma mərasimində iştirak etmişlər. Tədbirdə “Multikulturalizm ili” çərçivəsində bu kimi layihələrin keçirilməsinin əhəmiyyəti və davamlılığının zəruriliyi vurğulanmışdır. Həqiqətən də belə layihələr çərçivəsində xarici ölkə məktəblilərinin və tələbələrinin Azərbaycana səfəri onlara ölkəmizin mədəniyyəti və həyat tərzi ilə yaxından tanışlığa, xalqımızın tolerantlıq ənənələri və multikultural dəyərlərə verdiyi önəmin şahidi olmağa imkan yaratmış olar.

Şübhəsiz ki, baş tutan “Qardaşlaşmış məktəblər” layihəsini dövlətimizin “Multikulturalizm ili” çərçivəsində keçirdiyi tədbirlərdən ən uğurlusu hesab etmək olar. Ümid edirik ki, bu cür tədbirlərin keçirilməsi davamlı və daha da rəngarəng olacaqdır.